***

incimə, könül, incimə…
indi yaşamağa könülsüz vaxtlarımdı.

bir könüldən min könülə aşiq olduğum
ən gözəl gecələrdə işıq olduğum vaxtlardan
könül verib gəlmişliyim oldu
bu ömrün tərs üzünə,
boz üzünə...

incimə, könül, incimə…
könülsüz də yaşamaq olur hər yerdə

və ən böyük ayrılıq səndən başlayır
sonra –
gözlərimiz qapananda,
ruh göyə çəkiləndə,
can yerə əkiləndə…

könül hansı aralıqda qalır, bilməm…
ruhun yanındamı olur,
canın yanındamı, bilməm...

amma
bir könül ayrılığıdı ölüm də,
könülsüzlük var
bütün gedişlərdə…

mən indi könlüm qədər yoxam,
könülsüzlüyüm qədər varam bu yer üzündə…

***

yağışdan çatlamış torpaq damların,
küləkdən laxlamış yelpənək qapıların
həsrəti qədər böyüyürəm bu şəhərdə.
adına yaşamaq deməkdən qorxduğum
günlərdə azalıram,
üst-üstə gələn, gələn qəmlərdə azalıram…
heç özüm də bilmirəm nələrdə azalıram,
azalıram…
və hər gün qoxulara parçalanıram –
bənövşə qoxusuna,
nanə qoxusuna,
yağışdan sonrakı torpaq qoxusuna
daha aydın bilirəm ki,
ayrılıq arası bir küçədi – ömür…
nə o yandan çıxmaq olur,
nə bu yandan
hər gün yağışdan çatlamış bir ömrün



## Esmira MƏHİQIZI

aralı buraxılmış qapısından qaranlıq kimi keçirəm.
sanki gözlərinə mil çəkilmiş günəşin
heç zaman unutmadığı çocuğuyam…

***

getsəm...
yağışlar yağacaq,
bilirəm,
heç dayanmayacaq.
getsəm...
küləklər əsəcək,
heç kəsməyəcək.
getsəm,
getsəm…
yollar da mənimlə gedəcək,
sonra qayıtmağa yol olmayacaq…

***

yol hara gedirsə… mən də bilmirəm,
bir ucu olumdu,
bir ucu ölüm.
bir ömür nədi ki, yaşamaq üçün?
bir yaşam nədi ki, yollara bölüm?
yollara bölündüm elə özüm də,
gah quru yoluyam,
gah yaş yoluyam.
qartopu atıram günün dalınca,
ömrün payızında qar-qış yoluyam.
unama,

hardansa gün çıxa qəfil,
çıxsa da, bu dünya gün soyuğudu.
hələ də canıma üşütmə gəlir,
hələ xatirələr mən soyuğudu.
vətən soyuğudu soyuqlar hələ,
bala qoruyuram, soyuq dəyməsin.
bilmirəm, hayandan qapını örtüm,
bu ömrə üst-üstə soyuq gəlməsin.
yol hara gedirsə… mən də bilmirəm,
ha sağı tuturam, solaxay gedir.
bu sollar,
bu sollar,
sollar deyirəm…
soyuqdan başlayıb soyuğa gedir.
daha isidəmməz ocaqlar belə,
göylərə ulayan qurd soyuqları.
təpədən dırnağa buz kəsir elə
içimdə,
çölümdə yurd soyuqları.
haçandı sırsıra bağlayıb hər şey-
qanadım üşüyür,
qolum üşüyür.
gözümə oturub bu yolu getmək,
İlahi,
İlahi, yolum üşüyür!

***

hansı yana əl yelliyim,
hansı yana gedim ki,
o ağaca,
o yuvaya indi necə deyim ki,
– qışdı qışdan sonrası.
və günəşin çıxması
və işığın yanması...
hələ gecə lampası yolu aydınladırsa,
zülmətdən qurtarmırsa, səni gün də, işıq da
hələ çıxdığın yol da
istəmədiyin yerə aparırsa, gedirsə,
uçmaq arzulayırsa, amma uça bilmirsə,
ağacın budağında qanadlı xəyal quran
o sərçəcik uşaq da.
hara getsin o uşaq
qanadları yoxdusa,
arzuları heçdisə?
bir uşaqlıq yanından yuxu olub keçdisə,
qanadlı xəyalları uzaqlara köçdüsə…
daha hər şey gecdisə,
hansı yana əl yelliyim,
hansı yana üz tutum.
ağac, ağac, ay ağac, səni necə unudum,
uşaq, uşaq, ay uşaq, səni necə ovudum?..
necə unutmaq olur, görəsən, gedənləri,
necə ovutmaq olur, görəsən, ölənləri?..

***

bundan o tərəfə nələr var isə
bir qış gerçəkliyi,
bir yaz yoxluğu.
yaşam üşüdürsə, ömür qar isə,
üzünə çırpırsa, gün soyuqluğu
əgər ayazdısa,
əgər dondusa,
illərin bu məşum aralıqları.
bitmirsə,
həsrətin dəli-divanə
yalın boşluqlara sarılmaqları-
getmək istədiyin yer yoxa çıxır,
yollar da yolundan qırağa çıxır.
onda anlayırsan,
o yaz ayrıydı
içində bir dəli qızın havası.
hüzndü,
nisgildi,
yağmurdu eləəəə
bir titrək, bir həzin sözün havası.
sanki o havalar umudnan gəlir,
sanki o umudlar buludnan gəlir…
gəlir də,
gəlir də...
düşünürsən ki,
bundan o yana da yenə qar isə,
hər gecə yatağın, yerin qor isə,
o, yoxsa,
bu, yoxsa...
yoxlar var isə,
getmək istədiyin yol yoxdu daha,
bu soyuq boşluğu,
o boz boşluğu,
qucmağa əl yoxdu,
qol yoxdu daha...
onda bilirsən ki,
ehhh... bilirsən ki,
o ayrı yaz idi... yolları vardı,
o ayrı qız idi... qolları vardı.

***

necə olmaya bilirsə adam adam içində,
necə qalmaya bilirsə ömür bir dam içində,
sən də müdam içində
bir görüş yeri saxla,
saxla ayrılıqlara.
necə gəlməyə bilirsə, bilirsə gəlməyənlər,
necə görməyə bilirsə, bilirsə görməyənlər...
bir daha,
sarıl,
sarıl sən öz boynuna sarıl,
ağla ayrılıqlara.
ay aman, eyy, aman eyyy…
qol gəlir qol üstünə,
əl gəlir əl üstünə...
bu ömrün də yazı yox,
bir payızın dalınca bir qış da gəl üstünə..
gəl üstünə-üstünə, üstünə gəl ahları,
o ruhların, ruhların
üstünə gəl yoxları...
necə olmaya bilirsə zaman zaman içində,
necə qalmaya bilirsə duman duman içində
eləcə yox oluruq
bir qırpım an içində, bir quru can içində...

***
indi xatirələr də qürbət sayılır, getmək olmur.
daha bütün qürbətləri susuram…
vərəqin ucu kimi dilimi kəsir bəzi sözlər,
barmaqlarım qanayır.
yaralı barmaqlarımla
qəribliyin kədərini daşıyıram ovuclarımda…
ovuclarım da qürbətdi on qərib barmağıma…
mən bu həyatın harasındayam, bilmirəm.
indi hər yerdən bir uzaqlıq keçir,
keçir də, sürgün-sürgün...
sonra bir uzaq işarəti kimi qalıram yaxınlarda…
bilmirəm uzaq nədən bu qədər uzaq ki?
bir ömürdü əllərim yol gəlir saçlarımdan,
gəlib yetişə bilmir bahara.
yazmadığın bir şeiri unudandan sonra
o şeirin yerində nə qalırsa, oyam.
dodaqlarının insafına sığınmış
ən qərib sevda yolçusuyam.
get desə, qalmalıyam, qal desə, getməliyəm…
amma dodaqlarım da susur
qış günü ağacda donub yerə düşən bir quş kimi.
daha don vurmuş məmləkətdi hər yer...
hara gedirsən, soyuq,
soyuq,
soyuq…
o qədər üşüyürsən ki,
içindəki bütün baharları soyunursan,
bütün yayları o soyuğa bükürsən ki,
bəlkə, isinə, keçə soyuqlar,
bu neçə soyuqlar, gecə soyuqlar…
amma sonra görürsən ki, yenə də soyuqdu,
baharların üşüyür, yazların üşüyür…
yaz yazda bitir,
sabah sabahda,
uçuş uçuşda qırılır,
qış qışda çoxalır –
qışların bitmir, payızların bitmir…
o qədər qışları yaşayırsan ki,
bilmirsən hansı qışda olursan, hansı payızda
qalırsan…
donduğun günlərin birində
çocuqluq küçələrindən keçən ayrılıqlara sarılırsan,
daha aydın bilirsən ki, sən də qürbətsən.
və... kirpiyinin uclarında baxışların islanır.

